AZƏRBAYCAN

2 sentyabr 2024-cü il

# Cəbrayıllılar inamlıdırlar



**30 il doğma yurdlarından didərgin düşən soydaşlarımızın seçki prosesində iştirakını izləmişəm. Hər dəfə doğma torpaqlara qayıdacağı ümidi ilə səsvermədə iştirak edirdilər.**

"İnşallah növbəti seçkidə doğma yurdlarımızda səs verərik" deyirdilər. Bu dəfə ümidlə yox, inamla bu sözləri təkrar edirdilər. Ona görə ki, doğma torpaqları düşmən işğalından azad olunub, dövlət onların doğma el-obalarına qayıtması üçün nəhəng layihələr icra edir.

Elşad Əsgərov Cəbrayıl rayonunun Soltanlı kəndindəndir. Kəndləri işğal altında olduğu üçün Bakıda məcburi köçkün kimi yaşamağa məcbur olub. Söhbət zamanı dedi: "Artıq həsrətimizə son qoyulub. Tezliklə doğma kəndimizə qayıdacağıq. Allah şəhidlərimizə rəhmət eləsin, qazilərimizin canı sağ olsun! Onların qəhrəmanlığı sayəsində torpaqlarımız erməni işğalından azad olundu. Bu qələbəni bizə yaşadan Müzəffər Ali Baş Komandan, Prezident İlham Əliyevə minnətdarıq".

Elşad Əsgərov dövlətin erməni vandalları tərəfindən dağıdılan torpaqlarda hər cür şəraiti olan yaşayış məntəqələri saldığını bildirdi. Zümrüd Əsgərova da söhbətə qoşularaq dedi ki, tezliklə doğma el-obalarına qayıdıb, həyatlarına yenidən başlayacaqlar. İndi bunu səbirsizliklə gözlədiklərini söylədi.



Şükür Əliyev Cəbrayıl rayonunun Qumlax kəndindəndir. Dedi ki, hər dəfə ümidlə səs verirdim ki, doğma torpaqlarımıza qayıdacağam: "İndi arzularım çin olub. Tezliklə doğma kəndimizə qayıdıb yarımçıq qalan arzularımızı gerçəkləşdirəcəyik. Hər dəfə səs verəndə ümid edirdim ki, növbəti səsimi məcburi köçkün kimi qürbətdə deyil, doğma kəndimdə verəcəyəm. Çox şükürlər olsun ki, gələn seçkidə Cəbrayılda - doğma Qumlax kəndində səs verəcəyəm. Bizə bu sevinci bəxş edən şəhidlərimizə Allah rəhmət eləsin, qazilərimizə cansağlığı versin. Cənab İlham Əliyevin bizə göstərdiyi qayğıya görə minnətdarlığımı bildirirəm. Tarixi qələbədən sonra doğma torpaqlarımızda daha yaxşı yaşamağımız üçün hər cür şəraiti olan abad yaşayış evləri tikilir. Dövlət başçısının bu qayğısı sayəsində biz qumlaxlılar da tezliklə daha abad olacaq kəndimizə qayıdıb, qalan ömrümüzü həsrətdən, nisgildən uzaq, sevinc içində yaşayacağıq.

120 saylı Cəbrayıl-Qubadlı seçki dairəsinin 2 saylı məntəqəsində görüşüb söhbət etdiyimiz insanları əvvəlki illərdə olduğu kimi kövrək ümidli deyil, inamlı gördüm. Bu güvənlik isə qazandığımız tarixi Zəfərin nəticəsi idi.

***Rüstəm KAMAL,***
***İlham BABAYEV (foto),***
***"Azərbaycan"***